بسم الله الرحمن الرحيم

Bu kitabı
1988-dən bugünədək
Azərbaycanın azadlığı və torpaqlarının bütövlüyü uğrunda
şəhid olmuş bütün övladlarımızın,
o sıradan Şuşa uğrunda son nəfəslərinədək vuruşmuş
AXC Şuşa rayon şöbəsinin başçısı,
Azərbaycanın Milli Qəhrəmanı
**Ramiz Qəmbərov**'un (1962-1992)
və
AXC Oğuz rayon şöbəsinin başçısı
**Tofiq Oğuz**'un (1945-1992)
müqəddəs ruhlarına bağışlayıram.



**Məhəmmədəmin RƏSULZADƏ**
**(31.01.1884-06.03.1955)**

Ədalət TAHİRZADƏ

# MEYDAN:
# 4 il 4 ay

## Azərbaycan Xalq hərəkatı (1988-1992) haqqında gündəlik-qeydlər

Təkmilləşdirilmiş 2-ci nəşri

QANUN NƏŞRİYYATI

Bakı – 2020

**Elmi redaktoru:**
**Prof. Dr. Cəmil HƏSƏNLİ**

**TAHİRZADƏ Ədalət Şərif oğlu.**
**Meydan: 4 il 4 ay. Azərbaycan Xalq hərəkatı (1988-1992) haqqında gündəlik-qeydlər.**
**Təkmilləşdirilmiş 2-ci nəşri. Bakı: "Qanun", 2020, ...... səh.**

Bu kitabda Azərbaycanda 1988-ci ilin 19 fevralından 1992-ci ilin 16 iyununadək baş vermiş irili-xırdalı bütün önəmli hadisələr (ermənilərlə Qarabağ uğründa savaş, Qorbaçovun Qarabağı ermənilərə vermək üçün siyasi oyunları, Azərbaycan Xalq Cəbhəsinin yaranması və xalqa rəhbərliyi, respublika başçılarının qorxaqlığı, yaltaqlığı və fərsizliyi, hakimiyyət davaları, xalqımızın azadlıq və müstəqillik uğrunda ölüm-dirim mübarizəsi, 20 Yanvar, Xocalı soyqırımı, Moskvanın Qarabağı Azərbaycan tabeliyindən necə çıxarması…) öz əksini tapıb. Müəllif həmin hadisələrin şəxsən iştirakçısı olub, onları anındaca yazaraq qeydə alıb və 1997-ci ildə həmin gündəlik-qeydlərini ilk dəfə kitab şəklində nəşr etdirib. Ə.Tahirzadə bu 2-ci nəşrdə mətni əsasən olduğu kimi saxlamaqla yanaşı, ona yeni qısa ön sözü, əsərdə adı çəkilmiş bəzi şəxslər haqqında qısa bilgiləri, əsərdə adı çəkilən, ancaq indi dəyişdirilmiş yer adlarının siyahısını və adlar göstəricisini əlavə edib.

Kitab bütün təbəqələrdən olan oxucular üçün nəzərdə tutulub.

Redaktor:
Korrektor: Ülviyyə Emin
Dizayn: Ramil Akifoğlu

Qanun nəşriyyatı
Bakı, AZ 1102, Tiflis prosp., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

ISBN 0000000000000

© Ədalət TAHİRZADƏ

Bu kitabın yayım hüquqları "Qanun" nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının qanununa ziddir.

# İÇİNDƏKİLƏR

Yazardan bu nəşrə ön söz .............................................

Prof. Dr. Cəmil HƏSƏNLİ. Redaktordan ........................

Oxuculara demək istədiyim bir neçə söz .........................

BİRİNCİ BÖLÜM. Qarabağda nə olmuşdu? ..................

İKİNCİ BÖLÜM. On doqquz günün dastanı ................

ÜÇÜNCÜ BÖLÜM. Təqib. Tanklar arasında ................

DÖRDÜNCÜ BÖLÜM. Xalq vahid Cəbhədə birləşir .........

BEŞİNCİ BÖLÜM, Suverenlik çarpışmaları. "Azadlıq" cəh-cəhi .......

ALTINCI BÖLÜM. Ya azadlıq, ya ölüm! ..........................................

YEDDİNCİ BÖLÜM. Dikəliş. İlin xalqı ..................................

SƏKKİZİNCİ BÖLÜM. Parçalanma. Dağılan tifaq .................

DOQQUZUNCU BÖLÜM. Ərəfə ...............................

ONUNCU BÖLÜM. Qələbə .....................................

Ayrılmazdan öncə oxucuya deməyə məcbur olduğum bir neçə söz ......

Əsərdə adı çəkilmiş bəzi şəxslər haqqında qısa bilgilər ..............

Əsərdə adı çəkilən, ancaq indi dəyişdirilmiş yer adları ............

Adlar göstəricisi ..........................................................................

# YAZARDAN BU NƏŞRƏ ÖN SÖZ

Bu gün şanlı Azərbaycan Ordusu təxminən 30 il bundan öncə faşist ermənilərin yağmaladığı dədə-baba yurdumuz Qarabağı işğaldan azad edərək yenidən öz yiyəsinə – Azərbaycan xalqına qaytarmaqdadır. İndi Azərbaycandakı 30 yaşlılar nəsli 1988-1992-ci illər arasında nə baş verdiyindən, demək olar ki, xəbərsizdir. Əlinizdə tutduğunuz bu kitab isə o dönəmdə 4 il 4 ay boyunca xalqımızın həm ermənilərdən, həm Moskvadan, həm də ölkəmizin Moskvanın köləsinə çevrilmiş fərsiz, qorxaq və işə yaramaz rəhbərliyindən çəkdiyi müsibətləri, uğradığı itkiləri və faciələri günbəgün, saatbasaat əks etdirir. Ancaq əsərdəki bütün bu mənfi hadisələr içərisində köksümüzü qabardan bir amil müəllifdən asılı olmadan üzə çıxmaqdadır – xalqımızın mübarizliyi, düşmən qarşısından geri çəkilməməsi və öz azadlığı, müstəqilliyi uğrunda canını fəda etməyə hər an hazır olması, ölümün gözünə dik baxması!

"Meydan: 4 il 4 ay" kitabında təsvir edilən hadisələrin başlanğıcı olan 1988-ci ildən 32 il, əsərin nəşrindən isə 23 il keçir. Bu müddətdə çoxlu hadisələr baş verib və biz üzümüzü 32 yaşlı indiki nəslə tutaraq bəzi şeyləri xatırlatmağı gərəkli sayırıq.

1997-ci ildə bu kitabın əlyazması əlimizdə hazır olarkən onun nəşrinə keçmiş şagirdim, indi fizika üzrə görkəmli alim Rəhim Rəhimovdan başqa yiyə çıxan olmadı. O zaman Rəhim müəllim əlində güc-bəla 3 min dollar pul toplamışdı ki, özünə ev alsın. Mən isə onu "tovlayıb" bu kitabın qazanc gətirəcəyini söylədim və o da inanaraq həmin pulu nəşrə xərclədi. Kitab çıxdı və min nüsxədən yalnız... 200-ü satıldı. Kimin şəkli vardısa yalnız onlar aldı. Yerdə qalan 800 nüsxənin 400-ü ozamankı Cəbhə şöbələrinə satış üçün paylandı və onlardan bir qəpik də gəlmədi, 200-ü dosta-tanışa hədiyyə edildi, son 200 nüsxə isə AXCP-nin qurultayında nümayəndələrə pulsuz paylandı. Beləliklə, Rəhim müəllimə 3 min dollara yaxın borclu qaldım. O isə ürəyimi sıxmamağı tövsiyə edərək borcu halallıqla mənə bağışladı. Allah da xeyirxahlığının, ürəyiaçıqlığının əvəzini ona verdi, ona qapı açdı və çox keçmədən ürəyi istəyən mənzili də aldı. Buradan Rəhim Rəhimova ozamankı nəcib davranışına görə sonsuz minnətdarlığımı bildirirəm!

Kitabın nəşrindən keçən 23 ildə burada yazılan hər hansı bir fikrə etiraz eşitmədim, çünki hər şey dəlil və sübutla, inkaredilməz stenoqrafik hesabatla yazılıb. Ancaq bir "tənqidi" unuda bilmirəm. Soyadını və kimliyini gizlətmiş "Nizami1963" adlı birisi internetdə yazmışdı: "Ədalət Tahirzadənin bu əsərində həqiqət payı sıfır faizdir". "Dostum" anlaya bilməmişdi ki, sıfır faiz əsərin yazılmaması deməkdir. Bu dəyərləndirmənin özü müəllifin doğruluğunu dəyərləndirəcək ən əyani göstəricidir.

Bir daha bildiririk ki, 32-23 yaş arasındakı indiki gənclik 1980-ci illərin sonu-1990-cı illərin başlanğıcında xalqımızın yaşadığı hadisələrin incəliyini bilmir və bu kitabı oxuyarkən onda, şübhəsiz, "o adam kimdir?", "o hadisə necə oldu?" kimi çoxlu suallar yaranacaq. Elə bu suallara cavab vermək üçün biz indiki nəşrdə o zaman hamının yaxşı tanıdığı, ancaq indiki nəslin xəbərsiz olduğu bir çox adamlar haqqında qısa bilgi hazırlayaraq kitabın sonuna əlavə etmişik. Əlavələrdə bu prinsipi əsas götürmüşük ki, məsələn, Əbülfəz Elçibəy, Bəxtiyar Vahabzadə, Ziya Bünyadov, M.S.Qorboçov... kimi tanınmış şəxsləri yenidən tanıtmağa ehtiyac yoxdur, çünki onlar haqqında təkcə internetdən yetərincə bilgi almaq mümkündür. Başlıca olaraq o şəxslərin tanıdılmasına üstünlük vermişik ki, onlar barəsində internetdən, yaxud başqa qaynaqlardan bilgi əldə etmək az qala imkansızdır. Oxucum adlar içərisində düşmənlərimizin çoxluğuna təəccüblənməsin. Burada istər xankəndili, istər irəvanlı, istər moskvalı, istər raykom, istər akademik, istər yüksək rütbəli zabit, istər Sov.İKP MK Siyasi Bürosunun üzvü olsun... Qarabağı əlimizdən almağa çalışan az-çox önəmli hər kəsi indiki gənclərimizə tanıtmağa çalışmışıq. Təbii ki, onlar haqqında bilgilərin həlledici qismi rus dilinədir. Biz yeni nəslin ruscanı zəif bildiyini də nəzərə alaraq onların işini asanlaşdırmaq üçün rusca çoxlu qaynaqdan seçmələr etmişik.

Konkret hadisə və faktlarla bağlı kitabın sonunda izah verməyi artıq saydığımızdan hər səhifənin aşağısında ətək yazısı şəklində qeyd verməyi daha məqsədəuyğun bildik. Bu zaman indiki nəşrin ətək yazısı ilə ilk nəşrin ətək yazısını bir-birindən ayırmaq üçün yenilərdə "2-ci nəşrin qeydi"ni vermişik.

İlk nəşrdə bəzi hadisələrin kökünü, mahiyyətini açmağa yardımçı ola biləcək bəlgələr əlavə etmişdik. Aradan keçən müddətdə Meydan hadisələrinin canlı şahidlərindən yeni qiymətli bilgilər alaraq onları bu nəşrə artırmışıq. Artırdığımız materiallardan biri də adları indi dəyişdirilmiş olan böyük və kiçik toponimlərin (şəhər, rayon, qəsəbə, kənd, küçə, idarə və təşkilat, metro stansiyası və b. yer adlarının) siyahısıdır.

1997-ci il nəşrində biz əsərin dilini o zaman doğru saydığımız imla prinsiplərinə əsasən yazmışdıq; məsələn: 1-inci, 6-ncı, 9-uncu və b. Ancaq başqa qaynaqdan götürülmüş sənədlərin dilini orijinalda olduğu kimi dəyişməz saxlamışıq.

Bunu da qeyd etməliyəm ki, bəzən mətnə, yaxud bir sözə əlavələr etməli olmuşuq. Bu zaman artırılan hissəni düz mötərizə [] içində vermişik.

Ən sonda xatırladırıq ki, istər müəllifin dilindən olan mətndə, istərsə də gətirilən sənədlərdəki bütün seçdirmələr (kursiv, qara, seyrəltmə və b.) bizimdir.

İlk nəşrdən sonra oxucularımızdan çoxlu təklif gəldi ki, əsərin sonuna adlar göstəricisinin artırılması çox faydalı olar. Bu ikinci nəşrdə biz həmin arzunu da gerçəkləşdirdik.

Bu nəşrdə oxucularımızdan gələn bəzi irad və təkliflər nəzərə alınıb. Sizdən xahişim budur ki, yenə öz fikir, təklif və iradlarınızı bu ünvana göndərəsiniz: adalet.tahirzade@yahoo.com.

Ədalət TAHİRZADƏ
26.10.2020

Prof. Dr. Cəmil HƏSƏNLİ

# REDAKTORDAN

XX yüzilliyin milli azadlıq mübarizəsi, milli demokratik mücadilə əsri olduğu getdikcə daha artıq təsdiqlənir. Cəmiyyətin tarixində keşmə-keşlərlə, inqilablarla, ziddiyyətlərlə zəngin olan, elm və texnikada böyük kəşflərlə, ədəbiyyat və sənətdə möcüzələrlə yadda qalan XX əsr sona çataçatdadır. XXI yüzilliyin astanasında baş verən olduqca mühüm siyasi və milli proseslər yeni bir dünya düzəni doğurmuşdur. Bu dünya düzənində bizim yerimiz haradadır? Bu mühüm sual indi Azərbaycan vətəndaşı olaraq hər birimizi düşündürməkdədir. İstiqlala doğru yolumuz haradan başlandı? XX əsrin çalxantılarını, təbəddülatlarını necə yaşadıq? Bu yüzillikdə nə qazandıq, nə itirdik? Bu sorğuların cavabları artıq az-çox bəllidir, ancaq fikrimizcə, onlara ən tutarlı cavabları biz məhz XXI yüzillikdə – daha uzaq tarixi məsafədən boylanaraq verə biləcəyik. Lakin keçdiyimiz şərəfli yolun həlledici məqamları artıq indidən aydındır.

Ötən əsrin başlanğıcında rus işğallarına qarşı müharibələrdə babalarımızın **Cavad xan**'ın timsalındakı igidliyi, azadlıqsevərliyi tarix salnaməsinin qürur doğuran səhifələridir. Uğurları və itkiləri ilə yanaşı, bu çarpışma son nəticədə silaha söykənirdi. Uzun illərin düşüncələrindən, ideya axtarışlarından sonra bəlli oldu ki, müstəmləkə boyunduruğundan qansız qurtuluş yolu yeni maarifdə, yeni dünyagörüşündə, yeni düşüncədədir. Bir millət olaraq biz **M.F.Axundzadə**'nin əsərlərindən, **H. b.Zərdabi**'nin *"Əkinçi"*sindən, türk milli teatrından və üsuli-cədid məktəblərindən yarandıq. Bütün islam ümməti içərisində ilk islam millətçisi olduq. **Əli bəy Hüseynzadə**'nin, **Əhməd bəy Ağaoğlu**'nun, **Əlimərdan bəy Topçubaşı**'nın milli təfəkkür mücadiləsini yaşadıq. **Məhəmmədəmin Rəsulzadə**'nin türklük yolundan, islam imanından və çağdaş Avropa inamından nəşət tapan üçrəng bayrağı altında toplaşdıq. Və türk milləti olaraq ana yolumuzu müəyyənləşdirdik.

Ana yolumuz 1905-inci il təlatümlərindən, Sərdari-milli Səttar xanın azadlıq çarpışmasından, ilk türk respublikası olan Azərbaycan Cümhuriyyətinin ağrılı-acılı, fəqət son dərəcə şərəfli 23 aylıq müstəqil dövlətçilik addımlarından, **Şeyx Məhəmməd Xiyabani**'nin *"Azadistan"* idealından,

**Seyid Cəfər Pişəvəri**'nin başçılığı altında Güneydəki ilk Milli hökumətdən keçir. Bütün bu azadlıq, müstəqillik savaşları iri tarixi sıçrayışlar olaraq millətin öz qurtuluşu yolunda səbrinin tükənmə məqamıdır. Əgər bunlar ümumi bir tarixi müstəvidə gözdən keçirilsə görərik ki, Azərbaycan xalqının XX əsr tarixi milli mücadilə, demokratiya uğrunda savaş tarixidir.

Əsrin başlanğıcında olduğu kimi, sonunda da mübarizəmiz öz bəhrəsini verdi – Quzey Azərbaycan öz azadlığını qazandı. Ölkəmiz yenidən dünya dövlətləri cərgəsinə qoşuldu. Azərbaycanın müstəqilliyi geriyədönməz prosesə çevrildi. Ancaq bugünün özündə də içində yaşadığımız həmin prosesin tarixi dəyərini verməkdə çətinlik çəkənlər tapılır. Bəziləri onu Sovet imperiyasının dağılmasının avtomatik nəticəsi, bəziləri Moskvanın xalqımıza "hədiyyə"si olduğunu iddia edir. Ancaq belə düşüncələrin nə qədər yanlış olduğuna inanmaq üçün filologiya elmləri namizədi, alim-jurnalist **Ədalət Tahirzadə**'nin *"Meydan: 4 il 4 ay"* kitabını oxumaq kifayətdir.

Dilçi alim və jurnalist kimi Ə.Tahirzadənin imzası artıq çoxdan özünü təsdiqləyib. Bu imza *"Azərbaycan filologiyası məsələləri"* toplularından, *"Sovetskaya türkologiya"* dərgisindən, *"Elm"* qəzetindən keçib, *"Azadlıq"*-da, *"Yeni Müsavat"*da, *"Millət"*də... bərkiyib. Ə.Tahirzadə çağdaş Azərbaycan milli azadlıq və demokratik hərəkatının lideri **Əbülfəz Elçibəy**'in mübarizə yolu və taleyi ilə bağlı iki kitabı ərsəyə gətirib. O, milli hökumət dövründə təhsil nazirinin müavini kimi orta məktəblərimiz üçün yeni proqram və dərsliklərin yaradılmasına bacarıqla rəhbərlik edib.

Onun qələmi həmişə vicdanına qulluq edib. *"Meydan: 4 il 4 ay"* salnaməsi də məhz bu baxımdan səciyyəvidir. Müəllifin gərgin əməyi sayəsində ortaya çıxan bu sanballı əsər ən son tariximizi öyrənəcək tarixçilər üçün dəyərli məxəzdir. Fikrimizcə, XX yüzillikdə milli mücadilə tariximiz, istiqlal savaşımız haqqında ilk yazılı salnamə olan bu kitab Sovet imperiyasının çökməsində son dərəcə mühüm rolu olmuş Azərbaycanın qurtuluş mübarizəsinin ləkəsiz güzgüsüdür. Sıravi iştirakçısı olduğu bütün hadisələri günbəgün, saatbasaat, dəqiqəbədəqiqə yazıya köçürən müəllif çox dəqiq xronologiya yaradıb. 1988-1992-ci illər arasındakı təxminən 4 il yarımlıq müddətdə xalqımızın siyasi yaşamında baş verən elə mühüm bir hadisə yoxdur ki, Ə.Tahirzadənin nəzərindən qaçsın. O illərin mətbuatını, radio və televiziya verilişlərini və b. da diqqətlə izləyərək o, həmin çağın geniş ictimai-siyasi panoramını yaratmağı bacarmışdır. Onun əsərində Azadlıq mübarizəsi və bu mübarizəni aparan Xalq olduq-

ca qabarıq təsvir olunub. İnanıram ki, bu maraqlı əsərin oxucularının əksəriyyəti Azadlıq mübarizəsini aparan həmin Xalqın içərisində özünü də tapacaqdır. Məhz bu baxımdan Meydan həyəcanlarını yaşamış oxucular üçün əsər xüsusilə məhrəm olacaq.

Əsəri oxuduqca müəllifin təmənnasız əməyini qiymətləndirməyə bilmirsən. Bircə faktı göstərim ki, 19 günlük Meydan epopeyası burada o qədər incəliklə və genişliklə əksini tapıb ki, bəzən düşünməli olursan – bəs müəllif haçan dincəlib? 5 dekabr 1988-inci ildəki on bir saatlıq fasiləsiz yürüşdən qeydləri də onun vətəndaş mövqeyinə dərin hörmət yaradır. Yaxşı ki, belə qeydlər burada saysız-hesabsızdır.

Bu gün də bir çoxları bədgümandır ki, Meydan kimlərinsə gizli göstərişləri ilə idarə edilirdi, müxtəlif ölkələrə, yaxud şəxslərə məxsus xüsusi xidmət orqanlarının nəzarətində olan millət isə əslində şəxsi məqsədlərin icraçısına çevrilmişdi. Sözsüz ki, belə cəhdlərin olmadığını söyləmək sadəlövhlükdür, ancaq ayrı-ayrı cəhdlərin mövcudluğu Azadlıq meydanında kükrəyən Xalq hərəkatının mahiyyətini təhrif edə bilməz; bu cür düşüncələr hərəkatın bədənindəki qısır ziyildən başqa bir şey deyil. Buna bir daha inanmaq üçün *"Meydan: 4 il 4 ay"* kitabında təkamül prosesi son dərəcə ardıcıllıqla, heç bir şişirtmə olmadan, bütün çatışmazlıqları və qüsurları ilə təsvir edilmiş Xalq hərəkatının gedişini izləmək gərəkdir.

Əsəri oxuyarkən biz ovaxtkı qəhrəmanları və hadisələri bugünün gerçəklikləri ilə müqayisədə qiymətləndirmək imkanına malik olacağıq. İndi bir çoxlarının və bir çox şeylərin əsl üzü, gerçək mahiyyəti artıq bəlli olsa da, müəllif öz qeydlərinə xəyanət etmir, onları qətiyyən toxunmadan saxlayır. Bu obyektiv, bitərəf mövqe əsəri tarixi qaynaq kimi son dərəcə etibarlı edir.

Fikrimizcə, bu kitabın bir dəyərli cəhəti də odur ki, müəllif anonim, mücərrəd, xəyali "xalq", "millət", "vətən" anlayışlarından söz açmır, oxucunun özünü məhz özümüzdən ibarət konkret xalqın, millətin içində olmağa, Vətənin dərdlərini duymağa məcbur edir. Oxucu bir daha əmin olur ki, XX yüzilliyin sonunda yaşanmış 4 il 4 ayda onun milləti öz Azadlığı, İstiqlalı, Müstəqilliyi uğrunda, Vətəni uğrunda amansız düşmənlərlə qeyri-bərabər savaşa girmişdir. Bu gün də davam edən həmin şərəfli mübarizəmizin nəticəsi isə dünənimizə bəsləyəcəyimiz sevgidən və sayğıdan, onu nə dərəcədə düzgün dəyərləndirə bilməyimizdən asılı olacaq.

**1993**

# OXUCULARA DEMƏK İSTƏDİYİM BİR NEÇƏ SÖZ

1988-in 19 fevralında sovet hakimiyyəti illərində ilk dəfə olaraq Bakıda adamlar icazəsiz küçə yürüşü və mitinq keçirdilər. Onların gülləyə tutulmamasından duydum ki, xalqımızın tarixində indiyədək olandan fərqli, ancaq yaxşı-pisliyi hələ bilinməyən yeni bir mərhələ başlayır və bugündən sonra baş verəcək hadisələri unutmamaq üçün onları hökmən yazıb saxlamaq gərəkdir, çünki belə şeyləri sovet mətbuatı yaxına buraxmayacaq. *"Elm"* qəzetinin redaktorluğundan yenicə ayrılıb elmi işlə məşğul olsam da "köhnə" jurnalist kimi bu işdə özümün də fayda verə biləcəyimi qərarlaşdırıb Bakıda dörd il dörd ay boyunca baş verən, demək olar ki, irili-xırdalı əksər hadisələrin, eləcə də təkcə Bakıda yox, ölkəmizin bütün guşələrində baş qaldıran Azərbaycan Xalq hərəkatının iştirakçısına və "salnaməçi"sinə çevrildim. Açığı, o vaxt güman edirdim ki, bu yazdıqlarımı yalnız 20-30 ildən sonra nəşr etdirə bilərəm, ona görə də hər şeyi olduqca açıq yazmışdım.

Bu gündəlikləri dərc etmək üçün müxtəlif mətbuat orqanları mənə dəfələrlə müraciətdə bulunsa da buna razı olmamışam, çünki ilk gündən istəyim onu ayrıca kitab şəklində buraxdırmaqdı. İndiyədək bu qeydlərdən yalnız lap az bir bölümü (seçmələri) *"Əbülfəz Elçibəy: Bu mənim taleyimdir"* kitabında (Bakı: "Gənclik", 1992; "İlk çıxışlar" bölməsi) və *"MİP"* qəzetində (№ 1, 20.01.1995) vermişəm.

Oxuduğunuz bu kitab əsasən hadisələrin gedişi vaxtı meydanda, çox zaman ayaq üstündə yazdığım qeydlərdən ibarətdir. Düzdür, sonradan evdə bəzilərinin üstündə əl gəzdirib sistemləşdirmişəm, ancaq beləələri azdır; çalışmışam ki, onları yazıldığı andakı biçimdə – ütüsüz, boyasız sizə çatdırım. Nəşrqabağı dəyişikliklər bəzi yerlərin atılmasından, ayrı-ayrı şəxslərin ünvanına yazılmış qeyri-məqbul ifadələrin götürülməsindən, yaxud yumşaldılmasından, eləcə də konkret mətləblə bağlı gərəkli sənədin qeydə artırılmasından ibarətdir.

Bu gündəlik-qeydləri yazmaqda məqsədim siyasi-ictimai hadisələri təhlil süzgəcindən keçirmək olmayıb, mümkün qədər çox şeyi görmək və gördüklərimin içindən də çox şeyi seçib təsvir etməkdir. Məhz təhlilçilik yox, təsvirçilik yolu tutduğuma görə gözümdən və qulağımdan heç nəyin yayınmamasına güc qoymuşam. Qələmə aldığım şeyin mahiyyətcə nə olduğunu müəyyənləşdirməyi isə üzərimə götürməmişəm – qoy bununla tarixçilər və peşəkar siyasətçilər məşğul olsunlar. Deməli, burada tarixi hadisələri dəyərləndirən təhlil materialı ilə yox, təhlil üçün hazırlanmış gərəkli "xammal"la tanış olacaqsınız.

Bu başdan bildirim ki, mən siyasətçi deyiləm və qeydləri də siyasətçi kimi yox, Meydanın iştirakçısı olan adi bir vətəndaş, ən sıravi Azərbaycan ziyalısı, jurnalisti kimi qələmə almışam. Mən heç vaxt heç bir siyasi qurum və hərəkatda lider olmamışam, əksinə, liderlərə yaxınlıqdan çəkinmişəm; bu, hadisələrə liderlərin yox, öz mövqeyimdən qiymət verməkdə işimi xeyli yüngülləşdirib. (Doğrudur, Əlyazmalar İnstitutunda və AXC-də **Əbülfəz Elçibəy**'lə, *"Azadlıq"* qəzetində **Nəcəf Nəcəfov**'la birgə işlədiyim zamandan onlarla çox yaxın ünsiyyətim yaranıb, ancaq Xalq hərəkatının bu iki görkəmli öncülü ilə yaxınlığım hər şeydən qabaq, onların misilsiz mənəvi təmizliyə malik insan və səmimi dost olmaları ilə bağlıdır). Həmişə mikrofon arxasında yox, tribuna yanında, xalq içərisində dayanmağım xalqın əhval-ruhiyyəsini duymaqda, adamların nə düşündüyünü ümumiləşdirməkdə, kürsülərdən deyilən sözlərin doğru-əyriliyini seçməkdə mənə kömək edib. Ancaq təbii ki, bağlı qapılar arxasında nələr danışıldığından xəbərim olmayıb.

Məzmununa gəlincə, bu gündəliklər 1988-dən 1992-yədək təkcə mənim yox, bütövlükdə xalqımızın dünyagörüşündəki dəyişikliklərin təkamülünü izləmək baxımından maraqlı ola bilər. Onları yazmağa başlayanda mən Elmlər Akademiyası partiya komitəsinin üzvü olan sədaqətli bir kommunist, fəal yenidənqurma tərəfdarı idim, Sovet dövlətinə inamım vardı. Ancaq 20 Yanvar bu inamın üstündən birdəfəlik qalın qara xətt çəkdi. Boynumuza alaq ki, 1988-də Azərbaycanın on minlərcə (bəlkə daha çox) ziyalısı da məhz mənim kimi düşünürdü və həyat bizim hamımızı sadəlövhlüyümüzə görə sərt cəzalandıraraq ağıllandırdı. Çalışmışam ki, bax, bu "ağıllanma" prosesinin hansı axarda getdiyi qeydlərdə öz təbii əksini tapsın.

Əsərin artıq çapa hazır əlyazmasını gözdən keçirəndə sevindim – deyəsən, əməyim boşa çıxmayıb; güddüyüm ikinci məqsədə də az-çox nail olmuşam – xalqımızın azadlıq mübarizəsinin mənası, qarşılaşdığımız dözülməz faciə və fəlakətlərin gerçək səbəbləri, eləcə də nəşəsini az da olsa, daddığımız AZADLIQ və MÜSTƏQİLLİYİN necə böyük çarpışmalar, vuruşlar bahasına qazanılması bu gündəliklərdə ortaya çıxır. Bu nikbin qeydlər xalqımızın ən ağır anda da özünü itirmədiyini, ruhdan düşmədiyini, ən çətin döyüşlərə həmişə hazır olduğunu göstərir.

Yəqin ki, sizi gündəlik-qeydlərin yazılması şəraiti də maraqlandırar. Bir çoxlarınızın yadındadır – 1988-dəki mitinq və nümayişlərdə kimin əlində fotoaparat görünsəydi onu erməni agenti sayırdılar (hətta bir dəfə *"Molodyoj Azerbaydjana"* qəzetinin fotomüxbirini də erməni bilib bərk döymüşdülər). Bu deyilənin əliqələmlilərə də aid olduğuna özüm tezliklə inandım. Nəsə yazdığımı görən bir çoxları məndən şübhələnir, sənəd göstərməyimi tələb edirdilər. Yadımdadır – 1988-in noyabrında bir gündə altı dəfə yazımı yarımçıq qoydular. Hər dəfə də sənəd istəyir (onda *"Elm"* qəzetinin redaktoru vəsiqəmdən istifadə edirdim), uzun-uzadı sorğu-suala tuturdular. Bir gün hətta vəsiqə, pasport və hərbi bile-

timi göstərəndən sonra da məndən əl çəkməyən bir danabaş "vətənpərvər"in əlindən növbətçilik edən milis mayorunun köməyi sayəsində qurtardım. Sonralar diktofondan da istifadə etməyə başladım.

İlk vaxtlar meydanda harada olsa dururdum, bu isə bəzən natiqləri yaxşı eşitməyimə və meydanı əhatəli görməyimə mane olurdu. Sonralar həmişə hündürdə – tribunaların yanında, çox vaxt eyni yerdə dayanmağım həm səmərəli işləməyimə, həm də daimi iştirakçıların artıq mənim yazmağıma vərdiş etmələrinə səbəb oldu.

Uzun çəkən mitinq, yürüş və yığıncaqlarda fasiləsiz 5-6 saat (bəzən hətta günlərlə) qələm işlətmək asan deyil – barmaqlar və bilək ağrıyır. Xüsusən qızmar yay günəşi altında, şaxtada, yağışda, yaxud gecə qaranlıq düşəndən sonra yazmaq daha çətinləşir. Ancaq yadıma gəlmir ki, hər hansı çətinlik üzündənsə qeydlərimi yarımçıq qoyum; hətta soyuqdəymədən ən ağır xəstələnəndə, bir neçə günlük yorğunluqdan, yuxusuzluqdan ayaq üstə durmağı bacarmayanda belə (bu cür hallar da az olmayıb) çalışmışam ki, qeydləri hökmən uvertüra[1] ilə sona yetirim.

Gündəlik-qeydlərin əksəriyyətini cib dəftərçələrində yazmışam. Son 5 ildə onları qoruyub saxlamağa da qayğı göstərməli olmuşam, axı istər Noyabrdan[2], istər Yanvardan[3], istər Avqustdan[4], istərsə də Maydan[5]... sonra kütləvi repressiyalar başlayıb və başqa sənədlərlə birgə həmin dəftərçələri də dostlarımın evində gizlətməyə məcbur olmuşam. (Yeri gəlmişkən, qardaşım **Xaləddin**'ə və dostlarım **Bəhram Zeynalov**'a**, Saleh Hüseynov**'a bu qayğıkeşliklərinə görə minnətdarlığımı bildirirəm).

Diqqətli oxucu görəcək ki, müəyyən bir dövr (may 1990 – iyul 1991) gündəliklərdə dolğun əks olunmayıb. Bu, *"Azadlıq"* qəzetində çalışmağımla bağlıdır; yeni qəzetdə işlərin gərginliyi redaksiyadan aralanmağa imkan vermirdi, həm də hadisələr əvvəlkindən fərqli olaraq mətbuatda da əksini tapırdı, ona görə daha qeydlər aparmağı o qədər vacib saymırdım. Bu boşluğu doldurmaq üçün *"Azadlıq"* üçün yazdığım, ancaq müxtəlif səbəblər üzündən (hərbi senzuranın icazə verməməsi, redaktorun məsləhət bilməməsi, yazını ixtisar etməyə, yaxud dəyişməyə razı olmamağım və b.) çap olunmayan məqalələrimi kitaba salmağı məqsədəuyğun bildim. Özüm redaksiyadan uzaqlaşa bilmədiyim bəzi günlərdə həyat yoldaşım **Nailə xanım**'dan və qaynım **Feyzi [Səbzəliyev]** 'dən xahiş etmişdim ki, onlar mənim əvəzimə qeydlər aparsınlar; burada onların yazdıqlarını da verirəm.

---

[1] Xalq Cəbhəsinin təşkil etdiyi bütün mitinqlərin sonunda hökmən dahi Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasının uvertürası səsləndirilirdi. – *2-ci nəşrin qeydi.*

[2] 1988-in noyabr hadisələri nəzərdə tutulur. – *2-ci nəşrin qeydi.*

[3] 1990-ın yanvar hadisələri nəzərdə tutulur. – *2-ci nəşrin qeydi.*

[4] 1991-in avqustunda Azərbaycan Xalq Cəbhəsinin Sovet küçəsindəki qərargahının dağıdılması və "QKÇP" nəzərdə tutulur. – *2-ci nəşrin qeydi.*

[5] 1992-cinin mayındakı hadisələr nəzərdə tutulur. – *2-ci nəşrin qeydi.*

1992-nin 16 iyunundan – Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin andiçmə mərasimindən sonra mən gündəlik yazmağa son qoymuşam. Düzdür, bundan sonra ölkəmizin, xalqımızın tarixində olduqca mühüm sevincli və ağrılı hadisələr baş verib, ancaq Elçibəy iqtidarında respublika təhsil nazirinin müavini vəzifəsində yeni proqram və dərsliklərin yaradılması kimi ağır bir işlə məşğul olduğuma görə "salnaməçiliyə" vaxt tapa bilmədim. Çox istərdim ki, bir başqası da bu son tariximizin xronikasını yazmağın ağırlığını öz üzərinə götürsün[1]; ona uğurlar diləyirəm!

1993-ün 4 iyun çevrilişindən sonra xalqın inam və etibarına xəyanət edən bir çox siyasət dəllallarının gerçək sifəti gün kimi aydınlaşdı. Bu kitabda, çox təəssüf ki, onlar bəzən xalq qəhrəmanı kimi təsvir olunub. Mən bu gün böyük məmnunluqla həmin hissələri cırıb atardım, ancaq nə edəsən – bütöv bir xalqın yaşadığı o aldanışlı günlər artıq tarixə çevrilib, tarixi isə pozmağa nəinki mənim, heç onun özünün də gücü çatmaz! İstərdim ki, siz həmin səhifələri oxuduqca məni və onları "qəhrəman" adlandıran dünənki özünüzü söyməyəsiniz, əksinə, bu tarixdən ibrət götürərək bir daha üzünüzə söylənən ağ yalanlara və yalançılara uymayasınız, özünüzə uydurma qəhrəmanlar yaratmayasınız...

Sözümün sonunda bu kitabın nəşrinə qayğıkeşliklə yanaşmış dostlarım **Nəcəf Nəcəfov**, **Rəhim Rəhimov, Sabit Bağırov, Fəzail Ağamalı, Firudin Cəlilov** və **Xəliyəddin Xəlilov**'a, əsəri diqqətlə redaktə etmiş hörmətli redaktorum, professor **Cəmil Həsənli**'yə dərin minnətdarlığımı bildirirəm.

Bitməz-tükənməz şükürlərim isə bu əsərin yazılmasında və nəşrində ilkin və ulu yardımçım Allah-taala (c. c.) həzrətlərinədir!

**Ədalət TAHİRZADƏ**
**Bakı. 06 oktyabr 1993.**

**P.S.** Mən bu əsərin əlyazmasını tanışlıq üçün *"Yeni nəsil"* jurnalistlər birliyinin ovaxtkı sədri **Qənimət Zahidov**'a vermişdim. Bişkek protokoluna etiraz dalğası qalxan günlərdə Qənimət bəy həbs edildi, evində axtarış aparıldı və əlyazmalar da evindən götürüldü. 1994-ün 10 sentyabrından 20 dekabrınadək Bakı şəhər prokurorluğunda saxlanan (20854 saylı cinayət işi ilə bağlı) əlyazmanı millət vəkilləri olan dostlarım **Nəcəf Nəcəfov** və **Firudin Cəlilov** şəxsən respublika prokuroruna[2] müraciət edəndən və özüm də onunla görüşəndən sonra geri götürə bildim. Həmin günlərdə əsərin itə bilməsi həyəcanını (əlyazma vur-tut bircə nüsxə idi!) mənimlə birgə keçirmiş və onun xilası üçün əllərindən gələni etmiş həmin dostlarıma təşəkkürümü bildirirəm.

**25 dekabr 1994.**

[1] Əbülfəz Elçibəyin prezidentliyi dönəmini özüm "Prezident Elçibəy" kitabında (2001) əks etdirdim. – *2-ci nəşrin qeydi.*

[2] O zaman respublika prokuroru Eldar Həsənov idi. – *2-ci nəşrin qeydi.*

**P.P.S.** Bu yaxınlarda **Tanrıverdi Paşayev** mənə Azərbaycan KP 26 Bakı komissarı rayon komitəsi məlumat-təhlil şurasının (MTŞ) hazırladığı bəzi sənədləri təqdim etdi. O, AXC Nəzarət-Təftiş Komissiyasının (NTK) üzvü olarkən həmin sənədləri Cəbhə qərargahındakı öz iş otağından tapıb. Bəllidir ki, o zaman AXC qərargahı raykomun binasına yenicə köçmüşdü.[1] NTK-nın yerləşdiyi otaqda NTŞ raykomun hansısa şöbəsinin tapşırığı ilə mitinqlər haqqında ətraflı hesabat hazırlayıb, binadan köçən zaman isə hazır sənədləri (onlar ikinci nüsxələrdir; görünür, birinci nüsxələr harasa, kiməsə təqdim edilmişdir) özləri ilə götürməyə ehtiyac duymayıb.

T.Paşayevin verdiyi sənədlərdən 16 sentyabr, 8 və 15 oktyabr, 17 noyabr və 2 dekabr 1989 tarixli mitinqlər haqqında MTŞ-nın hesabatlarını bu kitaba salmağı məqsədəuyğun saydım. Onları mənə lütfkarlıqla təqdim etmiş **Tanrıverdi bəy**'ə də təşəkkürlərimi yetirirəm.

**21 dekabr 1996.**

**P.P.P.S.** Ətək yazılarının (çıxarışların, haşiyələrin) bir çoxu əsər mətbəəyə verilən ərəfədə artırılıb.

Mətnə artırılmış sənədlərə söykənməkdə məqsədimiz onlardakı düşüncələrin doğru olduğunu göstərmək yox, haqqında söz açılmış konkret məsələyə, yaxud fikrə müəyyən bir tərəfin mövqeyinin (bu mövqeyə öz münasibətimizi bildirmirik) varlığını bildirməkdir. Əsərin gələcək nəşrlərində ən müxtəlif mövqeləri tutuşdurmaq imkanımızın olacağına umudvarıq.

**22 yanvar 1997.**

---

[1] Üzeyir bəy Hacıbəyli küçəsi 30-da yerləşən AXC qərargahı 1993-üncü il iyun çevrilişindən sonra köçürüldü və oraya Səbail Rayon İcra Hakimiyyəti yerləşdirildi. – *2-ci nəşrin qeydi.*

# BİRİNCİ BÖLÜM

## DAĞLIQ QARABAĞDA NƏ OLMUŞDU?

**Bu gün 1988-inci il fevralın 27-sidir.**
**Respublika qəzetlərində *"Sov.İKP MK-nın***
***Baş katibi M.S.Qorbaçovun Azərbaycan və Ermənistan***
***zəhmətkeşlərinə, xalqlarına müraciəti"* dərc edilib.**
**Müraciətdə deyilir: *"Dağlıq Qarabağda və***
***onun ətrafında hadisələrlə əlaqədar olaraq sizə***
***müraciət edirəm".***
**Sənəd bu cümlə ilə bitir:**
***"Ağıl və kamalla hərəkət etmək məqamıdır".***
**Görəsən, Dağlıq Qarabağda nə olmuşdu?**

1982-ci ildə *"Oqonyok"* jurnalında (№ 50) belə bir yazı getmişdi ki (müəllifi *Aşot Arzumanyan*), heykəltaraş *Akop Gürcüyan* Şuşa şəhərində – Ermənistanın gözəl guşəsi Dağlıq Qarabağın mərkəzində anadan olub. 10 fevral 1983 tarixdə isə *"Komsomolskaya pravda"* qəzetində dərc olunan yazıda (*"Əks təsir"*; müəllifi *İ.Ağacanyan*) Dağlıq Qarabağda kənd təsərrüfatı problemləri ilə bağlı vəziyyəti öyrənmək üçün Ermənistan rəhbərliyinin (nazirin) fikri öyrənilirdi. Belə məntiqi nəticə çıxırdı ki, Dağlıq Qarabağ Ermənistana baxır, ona görə həmin respublikaya müraciət edilib.

Sonralar Azərbaycandan gedən çoxlu məktub və teleqrama əsasən hər iki redaksiya oxuculardan yol verilmiş səhvə görə üzr istədi. (Onların redaksiyalarında, görünür, Dağlıq Qarabağın Azərbaycana aidliyini bilməyən savadsız şöbə müdirləri işləyirmiş. Hər halda, yəqin ki, ən rəsmi cavab belə olardı). Yeri gəlmişkən, *"Komsomolskaya pravda"* qəzetinə cavab olaraq *"Kommunist"* qəzetində *"Doğrudan da əks təsir"* replikası çıxdı (13 fevral 1983) və həmin müəllifi sonradan Azərbaycan KP MK aparatı cəzalandırdı.

1984-üncü ilin oktyabrında beş erməni dığası Bakıda **106 nömrəli avtobusu** partlatmaq istədi. Onlar təxminən Dağüstü parkın yanında avtobusa partlayıcı

maddə qoyubmuş ki, Politexnik İnstitutunun qarşısına çatanda partlayış baş versin. (Hadisə axşama yaxın olub. Bu vaxt hamı işdən çıxır, tələbələr isə dərsə yollanır, Politexnik İnstitutunun qarşısı adamla dolur). Ancaq təxminən Əzizbəyovun heykəlinin[1] yanında kiminsə ayağı ona dolaşıb, partlayış olmayıbsa da, iki nəfər ölüb (biri qadın; Akademiyanın Şərqşünaslıq İnstitutunda işləyirdi), bir-iki nəfər yaralanıb. Yarımçıq partlayışın səbəbkarını Moskvadan gələn dövlət təhlükəsizliyi əməkdaşları tapdılar. Bəlli oldu ki, təşkilatçı 17 yaşında erməni dığası imiş. Məqsədi əsasən azərbaycanlı tələbələri qırmaq olub. Özü də hadisə ermənilərin "genosid"i ilə bağlı təşkil edilmişdi. Xoşbəxt təsadüf kütləvi qırğının qarşısını aldı.

SƏNƏD

*"Əziz Rəsulovun yadına salmaq istərdik ki, məhz onun DTK-nın istintaq şöbəsinin rəhbər işçisi olduğu və fəaliyyəti dövründə 1984-üncü ildə Bakıda 106 nömrəli avtobusda partlayış törətmiş* ***Vartanov Henrix Surenoviç*** *psixi cəhətdən qeyri-sağlam hesab olunaraq güllələnmə cəzasından canını qurtara bilmişdir".*

(*"Azərbaycan" qəz.*, 27 mart 1993, 3-üncü səh.).

Bu hadisədən yarım il qabaq – 17 aprel 1984-də böyük xərclə təmir edilmiş (bəzək işlərinə 4 kilodan artıq qızıl işlənmişdi) **Akademik Opera və Balet Teatrı binasını** da ermənilər[2] yandırdılar. Bu gün-sabah açılışı olacaq binanı heç nəylə söndürmək mümkün olmadı və onun quruca divarları qaldı. Bu yanğın insan vəhşiliyinin, azğınlığının, vandalizmin ən bariz örnəyi idi. (Nə yaxşı ki, bizimkilərdə qeyrət tapıldı, *Əliş Ləmbəranski, Həsən Həsənov* başda olmaqla qabaqkından da gözəl, əzəmətli, yaraşıqlı bina ucaltdılar. Düzdür, bina çöldən dəyişməz kimi görünür, ancaq bir ay bundan qabaq açılışı olan teatr binası demək olar ki, özülündən yenidən tikilib).

Bu ekstremist hadisələr xəbərdarlıq imiş...

A.Şərifzadə küçəsindəki bina da terrorçuların əli ilə partladıldı və burada xeyli adam öldü.

SƏNƏD

### SOV. İKP MƏRKƏZİ KOMİTƏSİNDƏ

*Sov.İKP MK "Ermənistan respublika partiya təşkilatında Sov. İKP MK iyun (1983-üncü il) plenumu qərarlarının yerinə yetirilməsi gedişi haqqında" qərar qəbul etmişdir.*

---

[1] O heykəl 2009-da götürüldü. – *2-ci nəşrin qeydi.*

[2] Binanı "Bərpaçı" birliyinin tikintidə işləyən fəhləsi *Qazaryan* yandırmışdı. Ona "işdə səhlənkarlığa (!) görə" 2 il icbari (!) iş kəsdilər.

*Qərarda deyilir ki, ... adamların tərbiyəsindəki qüsurlara bəzi partiya komitələrinin münasibətində siyasi kəskinlik və prinsipiallıq çatmır.*

*...Ayrı-ayrı elmi tədqiqatlarda, bədii əsərlərdə tarixi hadisələrin və şəxsiyyətlərin qiymətləndirilməsinə qeyri-sinfi münasibət müşahidə olunur.*

*...Rəhbər kadrların seçilməsində və yerləşdirilməsində əhalinin milli tərkibi daha tam şəkildə nəzərə alınmalıdır.*

*...Oğlan və qızlara yüksək ideya-mənəvi keyfiyyətlər, dərin beynəlmiləlçilik ruhu aşılansın.*

(*"Kommunist"* qəzeti, 21 oktyabr 1984).

Bəs bu qərara ermənilər hansı işlərlə cavab verdilər? Onlar partiyanın qərarlarını həyata keçirmək üçün hansı qüsuru aradan qaldırdılar? Bu suala cavab *"Literaturnaya qazeta"*nın Ermənistan SSR üzrə müxbiri *Zori Balayan*'ın Yerevanda həmin 1984-üncü ildə buraxılan (rusca) *"Oçaq"* ("Ocaq") kitabı oldu.[1] Nəfis tərtibatla buraxılan əsərdə türklər (azərbaycanlılar da onların içində) "vəhşi", "barbar" adlandırılır, onların ünvanına küçə söyüşləri yağdırılır, Oljas Süleymenova "pantürkist" adı verilir, ruslar türklərin üstünə qalxmağa, SSRİ Türkiyəyə qarşı müharibə etməyə çağırılır (sözsüz ki, birbaşa yox, ancaq çox çılpaq şəkildə), torpağın azlığından erməni xalqının çox əziyyət çəkdiyi dəfələrlə göz yaşları içərisində göstərilir.

Baxışlarını Dağlıq Qarabağa və Naxçıvana yönəldən Balayan *"mənim Qarabağım", "mənim Akulisim"* (Ordubadın Əylis kəndi) çığırır, bu torpaqları ən qədim erməni mədəniyyəti ocağı adlandırır. Əslində Sovet dövlətini parçalamağa, onu Türkiyə ilə savaşa, Azərbaycanla qırğına çağıran, rusları SSRİ-dəki türk xalqlarına nifrət bəsləməyə səsləyən bu əsərin avantürist, anarxist, ekstremist ruhunu duymaq üçün ən savadsız çoban olmaq belə kifayət idi. Ancaq ruslar buna fikir vermədilər. Azərbaycandan həmin əsərlə bağlı SSRİ-nin ən müxtəlif partiya və hökumət, mətbuat orqanlarına minlərcə kollektiv və tək imzalı məktublar, teleqramlar axışdı. Ancaq Moskvada onların heç birinə əhəmiyyət verilmədi. *"Literaturnaya qazeta"*nın redaktoru *A.Çakovski* Z.Balayanı açıq-açığına müdafiə etdi. Ara lap bərk qızışanda isə televiziyanın "Zaman" xəbərlər proqramında Z.Balayanın müsahibəsini təşkil etdilər (yəni "Balayan hələ ölməyib!"). Ermənistanda isə onun cızmaqarası respublika jurnalistlər ittifaqının mükafatını aldı. Ermənilər Balayanı özlərinin milli qəhrəmanına çevirdilər. Əslən Xankəndindən (Stepanakertdən) olan Balayan tez-tez bura gəlib camaatı qızışdırmağa başladı. Bizdə isə...

---

[1] Şair *Rüstəm Behrudi* Moskvada "Proqress" nəşriyyatının ingiliscə buraxdığı (1987) *"Ocaq"* kitabını gördüyünü mənə dedi və bildirdi ki, kitaba belə epiqraf verilib: *"Bütün xalqlar üçün günəş şərqdən doğur, ermənilər üçünsə Qarabağdan doğacaq"*. Faktı yoxlamamışam.

Bizdə isə Mərkəzi Komitə (birinci katib **Kamran Bağırov**) bütün kütləvi məlumat vasitələrinə (mətbuat, radio, televiziya) ən ciddi tapşırıq verdi ki, nəbadə birdən o əsərə qarşı bir çıxış verəsiniz!

Beləliklə, Balayan tam sərbəst, heç kəs tərəfindən cəzalandırılmadan fəaliyyətini davam etdirirdi. Azərbaycanda isə Şərqşünaslıq İnstitutunun gənc elmi işçisi **İsa Qəmbərov**'***un rusca yazdığı təxminən 60 səhifəlik çox soyuqqanlı və faktlara əsaslanan ağıllı yazısından (onu heç kəs, heç yer çap etmədi,***[1] ancaq makina çapında xeyli yayılmışdı; çox adamda indi də onun cildlənmişi durur), bir də şair **Eldar Baxış**'ın şeirindən *("Bala da bizimdir, zor da bizimdir")* başqa (deyəsən, yenə bir-iki xırda-xuruş şeir yazılmışdı) ortaya heç bir sanballı şey qoyulmadı, çünki bizim Mərkəzi Komitə buna imkan vermədi. Yenə yaxşıdır ki, **Kamil Məmmədzadə**'nin *"Naxçıvan abidələri"* və **Fəridə Məmmədova**'nın *"Qafqaz Albaniyasının siyasi tarixi və coğrafiyası"* əsərləri çıxdı, onlarda dolayısı ilə Z.Balayana cavab verildi, xüsusən ikinci əsər (bir-iki günün içində satılıb qurtarmışdı) erməni daşnaklarının qəzəbinə səbəb oldu. (Onun bu mövzudakı doktorluq dissertasiyasının təsdiqinə də onlar Moskvada uzun müddət mane oldular).

Bu aralarda Ermənistanda yenə erməni xalqının tarixi ilə bağlı fitnəkar əsərlər buraxdılar, Andraniki (Naxçıvanda, Azərbaycanın başqa yerlərində bütöv kəndləri dağıdıb minlərlə əhalini qıran cəlladı) xalq qəhrəmanı adlandırdılar.

Moskvada 1987-ci ildə buraxılan rusca *"Sovet dövlət və hüququnun əsasları"* dərsliyinin (VIII sinif üçün) 198-inci səhifəsindəki tablonun üstündə yazılıb: "2 *№-li orta məktəbin alman dili müəllimi Erna Danelyan X sinifdə dərs deyən zaman.* ***Stepanakert şəhəri, Erm[ənistan] SSR***".

Bütün bunlar Moskvada və Bakıda təkəbbürlü və itaətkar bir sükutla (kabinetləri qorumaq kimi "şərəfli" bir vəzifəyə tabe edilərək) müşayiət edildi.

Bir-iki il sakitlik oldu (hər halda, bizim tərəfdə).

**M.S.Qorbaçov** Sov.İKP MK-nın Baş katibi olandan sonra Novosibirskdə *"Eko"* jurnalının redaktoru işləyən iqtisadçı alim akademik **Abel Ağanbeqyan**'ı yanına apardı və o, ölkənin iqtisadi yenidən qurulması məsələlərində Mərkəzi Komitəyə məsləhətlər verməyə başladı. Ermənicə kəlmə də bilməyən, anası macar olan, Ermənistan üzü görməyən (Tiflisdə doğulub) Ağanbeqyan tez-tez xarici səfərlərdə M.S.Qorbaçovun yanında gəzdi, özü də ayrıca səfərlər etdi. Onların birində – 1987-ci ilin noyabrında Fransada olarkən Parisdə erməni daşnakları ilə görüşdü və onlara bildirdi ki, Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi üçün tədbirlər planı hazırlayaraq ölkə rəhbərliyinə verib və əmindir ki, həmin plan qəbul ediləcək.

---

[1] İ.Qəmbərovun bu əsəri 5 yanvar 1985-də makinadan çıxıb, 1985-1987-də surəti xalq arasında minlərcə nüsxə yayılıb, 1988-1991 arasında ilk dəfə 1991-də Eldar Baxışın *"Səs"* qəzetində və sonra müxtəlif qeyri-dövlət qəzetlərində və özbasım (samizdat) dərgilərdə dərc edilib, kitabda ilk dəfə yalnız 2003-də onun "Azadlığa doğru" əsərində gedib.

Bu söhbəti Fransa Kommunist Partiyasının orqanı *"Humanite"* qəzeti 18 noyabr tarixli nömrəsində dərc etdi.

SƏNƏD

***"Paris ermənilər Abel Ağanbeqyanı salamlayırlar.***

*Yenidənqurma haqqında kitabının çıxması münasibətilə Fransada olan sovet alimi Abel Ağanbeqyan bununla bağlı olaraq onun şərəfinə bazar ertəsi axşam Fransa Erməni İnstitutu və Erməni Veteranları Cəmiyyətinin verdiyi qəbulda iştirak etmişdir.*

*Qızğın ab-hava öz xalqının ləyaqətli oğullarından birinin xidmətlərinə qürurdan qidalanırdı. Ermənilər siyasi və fəlsəfi fərqlərə baxmayaraq, öz ölkələrində yurdlaşmış vətənpərvərliyi Ermənistan Sovet Sosialist Respublikası kimi milli və mədəni ocağa sədaqətlə bir yerdə yaşatmağı davam etdirirlər.*

*Həyəcanı əsrin başlanğıcındakı qırğın (genosid) vaxtı keçirilmiş əzablar haqqındakı xatirələr də doğururdu. O (həyəcan – Ə.T.), bazar ertəsi "İnterkontinental" mehmanxanasının Manukyan və onun yoldaşlarının ölümə məhkum edildikləri zalın yanındakı bu salonunda gücləndi. Qəhrəmanın dul qadını Meline "ermənilər Qorbaçovla birlikdə yeniləşməyə tərəfdardırlar" bildirərək məşhur sovet iqtisadçısını salamladı.*

*Yerevan ikinci paytaxtları kimi olan fransızlarda yenidənqurma maraq doğurdu. Ağanbeqyan sovet cəmiyyətinin bütün sahələrinin demokratikləşdirilməsinin bu qlobal islahat üçün nə qədər zəruri olduğundan danışdı. O, dinləyicilərinin diqqətini yenidənqurmanın beynəlxalq ticarət, iqtisadi əməkdaşlıq və qarışıq cəmiyyətlər qarşısında açmalı olduğu imkanlara cəlb etdi.*

*Tiflisdə doğulan, səkkiz yaşından müharibə dəhşətlərini görən akademik dilini bilmədiyi Ermənistanda heç vaxt yaşamayıb. Bu, onun yerini sovet əməkdaşlığında gördüyü bu torpaqla əlaqələrini zəiflətməyib. Öz sosialist federasiyasında SSRİ-nin müxtəlif respublikalarının əldə etdikləri qarşılıqlı fayda haqqında həddən artıq ehtiyatsızlıqla fikir söyləyən söhbətdaş qadınlardan birinə Ağanbeqyan belə cavab verdi.*

*İqtisadçı göstərdi ki, Ermənistanda yenidənqurma çox ləng gedir və qeyd etdi ki, Yerevanın Ararat vadisinin və Sevan gölü tektonik çökəkliyinin müxtəlif ekoloji problemlərinin həlli yetişmişdir.*

*Azərbaycan respublikasına birləşdirilmiş qədim erməni torpaqları olan Qarabağ və Naxçıvan haqqında soruşanda Ağanbeqyan birinci haqqında "özünün şəxsi nöqteyi-nəzərini" ifadə etdi:* ***"Mən istərdim ki, respublikanın şimal-şərqində yerləşən Qarabağ Ermənistanın olsun. İqtisadçı kimi mən belə hesab edirəm ki, o, Ermənistanla Azərbaycandan daha çox bağlıdır. Bu istiqamətdə mən bir təklif irəli sürmüşəm. Əminəm ki, bu problem yenidənqurma və demokratiya şəraitində öz həllini tapacaqdır".*** *Yeri gəlmişkən, Qorbaçov 2 noyabrdakı nitqində milli məsələdəki ləngimələ-*

*rin vurduğu ziyanları qeyd etmişdir. Ağanbeqyan cənub-qərbdə Türkiyə sərhədi boyunca yerləşən Naxçıvan haqqında heç nə demədi. Həqiqətən, bu anklavda erməni əhalisi lap azdır".*

(*L'HUMANITE, MERCREDI,* 18 novembre 1987-17).

Dekabrın əvvəllərində qəzetin çıxışı bizdə də məlum oldu və onun tərcüməsi xalq arasında geniş yayıldı. Yenə də camaat Moskvaya kütləvi şəkildə məktublar, teleqramlar göndərməyə başladı. Yenə də Mərkəzi televiziya Ağanbeqyanın saatlarla çəkən müsahibələrini təşkil etdi. (Onu da hökmən demək gərəkdir ki, M.S.Qorbaçovun 1987-ci ilin sonunda Vaşinqtona səfəri zamanı *Raisa Maksimovna Qorbaçova* da burada ermənilərlə görüşmüş və bildirmişdir ki, "erməni xalqı ilə sovet xalqı" dostdurlar, özü də bu sözləri bizim televiziya da vermişdi. Görünür, Ağanbeqyan da, bütün yerdə qalan ermənilər də bu sözlərdən ruhlanmışdılar. Çünki Amerika müxbirinə verdiyi müsahibədə M.S.Qorbaçov demişdi ki, mən bir çox məsələləri arvadımla müzakirə edirəm).

17 dekabr 1987 tarixdə Akademiya partiya komitəsinin XVII konfransı keçirildi. Akademik **Ziya Bünyadov** çıxış edib, Ağanbeqyanın hərəkətlərinin qarşısını almağı yığıncaqda iştirak edən MK-nın ideologiya üzrə katibi **Ramiz Mehdiyev**'dən tələb etdi. O, vəziyyətin ciddi olduğunu, erməniləri müdafiə edən bəzi konkret şəxslərin adını söylədi. Cavabında isə R.Mehdiyev bildirdi ki, Ağanbeqyanın çıxışı şəxsi fikirdir və şəxsi fikir bütün ermənilərin fikri demək deyil. (Sonra Qorbaçovun iki xalqa müraciəti isə göstərdi ki, bu, necə "şəxsi fikir" imiş!)

Ağanbeqyana ilkin etiraz səsini ucaldanlardan biri **Anar**, onun başçılıq etdiyi Yazıçılar İttifaqının üzvləri oldu. Onların kütləvi məktubundan sonra ali məktəblər və idarələr kollektiv imzalarla Moskvaya məktublar yollamağa başladılar (Dəqiqini deyə bilmərəm, ancaq eşitdiyimə görə, Bakıdan göndərilən məktublar Moskvaya getib çatmadı). Bu işin Akademiya sistemində təşkilini **mən** öz üzərimə götürdüm. İlk imzanı özüm qoydum, ilk Akademiya kollektivi də işlədiyim Əlyazmalar İnstitutu oldu. (Buradan cəmi 76 imza toplandı). Sonra bir-bir institutlara gedib (ya partkomların, ya da direktorların yanına)[1] məktub nümunəsi verərək əməkdaşların imza atmalarını xahiş etdim. İmza yığılması iki-üç gün çəkdi. Dekabrın 31-də axşama yaxın məni evdən (yataqxanadan) EA partiya komitəsinə əlimyandı çağırdılar və bu işlə məşğul olmamağı "məsləhət bildilər".[2] Yeni ilin ilk iş günlərində Əlyazmalar, Ədəbiyyat, Dilçilik, Fizika institutlarından, Akademiya kitabxanasından, xüsusi konstruktor-texnoloji büro-

[1] EA Partiya Komitəsinin üzvü, yarım il qabaq isə *"Elm"* qəzetinin redaktoru olduğuma görə onlar məni yaxşı tanıyırdılar.

[2] Partiya komitəsinin katibi *Fuad Həsənov* (o, 20 Yanvardan sonra partiyadan çıxdı), onun müavinləri *Yaşar Ələsgərov* və *Hüseyn Əsgərov* ilk gün məni çox çək-çevirə saldılar, ancaq ikinci gün, nədənsə, geri çəkildilər.

sundan, Radiasiya Tədqiqatları Mərkəzindən və b. kollektivlərdən gələn (Tarix, Şərqşünaslıq, Geologiya institutları bildirdilər ki, imza toplayıblar, ancaq özlərinin məktublarını göndərəcəklər) 576 nəfərin qolladığı məktubu imzalarla birgə İnstitutumuzun əməkdaşı **Söhrab Bayramov**'a verdim, o da aparıb poçtdan yola salaraq qəbzini mənə verdi.

Yanvar ayı da Moskvaya beləcə kütləvi məktub və teleqram göndərmə aylığı oldu.

(Aldığımız məlumata görə, Dağlıq Qarabağ Muxtar Vilayətinin 120 min sakini – bunların içində körpə uşaqlar da var – imza toplayıb Moskvaya göndərib ki, biz Qarabağın Ermənistana verilməsini tələb edirik. Ancaq bizim respublika partiya, sovet təşkilatları, xüsusi orqanlar onda yuxulayırdılar. Ermənilər keçən ilin yayından imza toplamağa başlayanda biz arxayın-arxayın oturmuşduq).

**15 yanvar 1988-nci il** tarixdə *"Ədəbiyyat və incəsənət"* qəzetində akademik **Ziya Bünyadov**'un *"Doğruya zaval yoxdur"* adlı məqaləsi dərc olundu. O, ermənilərin dəyirmanına su tökən alimləri tənqid edir, Qarabağın Azərbaycan torpağı olduğunu elmi əsaslarla izah edən Fəridə Məmmədovanı müdafiə edirdi. Yazının lap sonundakı bircə cümlədə Ağanbeqyanın fitnəkar hərəkətindən ayrıca danışılırdı. Məktub çox böyük əks-səda doğurdu və rayonlarımızda yatanları da ayıltdı.

Eşitdiyimə görə, məqaləni qəzetin redaktoru **Nəriman Həsənzadə** vermək istəmirmiş. Ancaq Anar yazının dərc edilməsinə təkid göstərib və deyib ki, qəzet Yazıçılar İttifaqının orqanıdır, mən də bu təşkilatın başçısı. Əgər qorxursansa, sənin yerinə mən qol çəkib icazə verim. Nə isə, bu cür güclü təzyiqdən sonra çıxdı Ziya Bünyadov kimi Sovet İttifaqı Qəhrəmanının yazısı aşkarlıq dövründə. Bizim Mərkəzi Komitə isə Nəriman Həsənzadəyə sayıqlığını itirdiyinə görə töhmət verdi. (İşini bilirmiş!)

***

**1988-inci il fevralın təxminən 13-ündən sonra** Stepanakertdə qarmaqarışıqlıq başlandı. Aldığımız xəbərlərə görə, təkcə burada yox, Dağlıq Qarabağın ermənilər yaşayan bütün yerlərində Azərbaycanın bayraqları yerinə Ermənistan bayrağı asıblarmış. (Hətta Əsgəran Rayon İcraiyyə Komitəsinin bu günlərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmiş (!) sədri Əsgəranın hakimiyyət binasının üstünə daşnak (!) bayrağı[1] sancıbmış. ***Vilayətdə azərbaycanlıları incitməyə, döyməyə, öz evlərindən qovmağa başlayıblar.***

Ən müxtəlif təşkilat və instansiyaların, ayrı-ayrı vəzifəli şəxslərin yardımı və vədləri, dünya ermənilərinin baş keşişi *Vazgen*, *Ağanbeqyan* və *Balayan* kimi

---

[1] Sovet respublikaları içərisində əski bayrağını ilk bərpa edən məhz Ermənistan oldu. O vaxt biz bu bayrağı "daşnak bayrağı" adlandırırdıq. Azərbaycanın indiki bayrağına isə "müsavat bayrağı" deyənlər vardı.

"millət qəhrəmanları"nın təhriki, Ermənistan KP Mərkəzi Komitəsinin birinci katibi *Dəmirçiyan*'ın təşkilatçılıq qabiliyyəti sayəsində ruhlanan Qarabağ erməniləri ayağa qalxıb Ermənistan SSR tabeliyinə keçmək istədiklərini bildirmişlər, nümayişlər təşkil etmişlər (ən böyüyü fevralın 13-ündə olub).

**Fevralın 20-sində DQMV İcraiyyə Komitəsinin XX çağırış növbədənkənar sessiyası muxtar vilayətin Ermənistan SSR-ə keçdiyini qərara almışdı.** *"Sovetakan Karabax" – "Sovetski Karabax"* qəzetləri də sessiyanın qərarını dərc edib (21 fevral 1988, № 43). Bundan sonra Qarabağ erməniləri artıq hər şeyin həll olunduğunu güman edib, Azərbaycanla bağlı heç kəslə əlaqə saxlamaq istəməmişlər. Başa düşməmişlər ki, birincisi, DQMV 1923-üncü ildə Leninin imzası ilə təşkil edilib; ikincisi, SSRİ Konstitusiyasına görə, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz; üçüncüsü də, bu işə xarici dövlətlər də qoşula bilər. Həm də Pribaltika respublikaları da (xüsusən Estoniya) məğşuşluq içərisindədir, orada avantüristlər[1] SSRİ-dən çıxmağı tələb edirlər, Qazaxıstandakı ehtiraslar təzə-təzə soyuyur, Krım tatarları hələ dincəlməyib, yakutlar baş qaldırıb – bir sözlə, ölkə narahatlıq içindədir. Belə bir vəziyyətdə bir yandan da ermənilərin iddiasına dövlət, partiya nə cavab verər?

Doğrusu, inanmaq olmaz ki, adamın evinə yad qonaq gəlsin, bir həftə, on gün qalandan sonra desin ki, bu ev mənimdir. Bəlkə buna birtəhər dözmək mümkündür – axı qonaq şərəf və ləyaqət hissini, duyğusunu itirə bilər! Ancaq həmin qonağın üstəlik "mənim bu evimdən çıxmalısan!" deməsi və haray-qışqırıq salıb aləmi başına yığması sağlam insanın beyninə yerləşən şey deyil, çünki bu işi insan adını daşıyan varlıq edə bilməz. Ermənilər isə etdilər! *Balayan*'ın "xalqımızın torpaqları azdır!" şivənləri hədər getmədi. Başlıca kütləsi Rusiya-İran və Rusiya-Türkiyə müharibələrində Qarabağa köçürülmüş[2] erməni əhalisi **Pənahəli xan**'ın yurdunda Xankəndinin adını dəyişib Stepanakerti özünə paytaxt edir və deyir ki, bura mənimdir, azərbaycanlılar da ("azərbaycanlı" adını **türk** xalqımıza calayanın babalarına min təsbeh lənət!) torpaqlarımızdan çıxmalıdır. Sən demə, həyatda hər şeyi gözləmək olarmış. Nə isə, fevralın 19-u gəlib çatdı...

**19 fevral 1988.** Səhər işə gələn kimi qəzetlərə baxmağa başladım. *"Ədəbiyyat və incəsənət"*in bugünkü nömrəsində **Qulam Məmmədli**'nin *"Mücahid şair"* adlı yazısı vardı. (Qabaqlar onu mən *"Elm"* qəzetində *"Leninlə görüşən şair"* adı ilə *"Salman Mümtaz məktəbi"* rubrikasında vermişdim; bu qəzetdə bir az artırmalar var). Müəllif yazır ki, 1937-ci ilin yayında şair Sabit mənə dedi ki, hamını tuturlar. Hanı Cavid, hanı Salman Mümtaz?

Mən Qulam müəllimin evinə zəng vurub dedim ki, ay Qulam müəllim, axı Salman Mümtazı 9 oktyabrda tutublar, bu söhbət yayda necə ola bilərdi? Elə bu

---

[1] Acı olsa da gerçəklikdir – 1988-də çoxumuz SSRİ-dən çıxmaq tələbini avantürizm sayırdıq.
[2] Bu haqda bizdə çoxlu kitablar nəşr edildi.

vaxt otağımın qapısı açıldı, institutumuzun direktoru **Cahangir Qəhrəmanov** içəri girdi, mənə dedi ki, səs-küyü eşitmirsən? Fikir verdim, gördüm ki, Kommunist küçəsindən (mənim otağım o küçəyə baxır) bərk qışqırıq səsləri gəlir. Qulam müəllimlə alayarımçıq sağollaşıb Cahangir müəllimlə birgə pəncərəyə sarı qaçdıq. Gördük ki, tələbələr *"Qa-ra-bağ!", "Qa-ra-bağ!"* qışqıra-qışqıra nümayiş keçirirlər, əllərində şüarlar da var. Cahangir müəllim dedi ki, Hökumət evinin qarşısına gedirlər.

Bir gün qabaq – fevralın 18-ində Akademiya partiya komitəsinin katibi **Fuad Həsənov**, partkomissiyanın sədri **Hüseyn Əsgərov**, bir də Akademiya baş xalq nəzarəti qrupunun sədri **Hüseyn Fərəcov** bizim yataqxanaya[1] gəlmişdilər. Özlərinin deməsinə görə, təmir işləri ilə maraqlanırdılar, ancaq hiss olunurdu ki, sakinlərin əhval-ruhiyyəsindən narahatdırlar. Fuad müəllim ayrılıb gedənə yaxın dedi ki, bu gün Moskvadan xəbər verilib ki, Qarabağ məsələsi ən yüksək səviyyədə (yəni **M.S.Qorbaçov** səviyyəsində) həll olunub. Bunu **K.M.Bağırov** Moskvadan zəng vurub (o və **Ramiz Mehdiyev** Moskvaya *Qara Qarayev*'in 70 illik yubileyi təntənəsinə getmişdilər) xəbər verib. Fuad müəllim onu da dedi ki, artıq hərəkətlərə yol verməк lazım deyil, çünki daha mübahisə həll olunub...

Nə isə, nümayişdə iştirak etmək üçün bir azdan mən də Hökumət evinə tərəf yollandım. Mən bura çatanda Lenin meydanındakı çıxışlar yenicə başlanmışdı. Azərbaycan Politexnik İnstitutu, İnşaat Mühəndisləri İnstitutu və Universitetin[2] tələbələrinin, ya da eşidib gələn ayrı-ayrı adamların sayı 3-4 min olardı. Tələbələrin əllərində özlərinin yazdığı bu şüarlar vardı: *"Qarabağı müdafiə etməyə həmişə hazırıq!", "Qoy ucalsın elin səsi, Qarabağın şikəstəsi!", "Yaşasın Azərbaycanın qədim torpağı Qarabağ!", "Rədd olsun şovinizm!", "Erməni şovinistlərinə ar olsun!"* və b. (Bunları mən elə oradaca kağıza köçürmüşdüm). Həmişə partiya və dövlət rəhbərlərini görməyə adət etdiyimiz tribunada xeyli adam vardı, çoxusu tələbələr idi. Əllərində səsucaldan tutmuşdular; daha doğrusu, bircə səsucaldan vardı, onunla növbələşərək danışırdılar. Təəssüf ki, danışanların çoxunu tanımırdım, əksəriyyəti də öz adını demirdi. Buna görə də onların adlarını burada çəkə bilməyəcəyəm. Ancaq yadımda qalanları (qeydlərimdən də istifadə edərək) bura köçürürəm.

Çıxışçılardan biri (tələbə deyildi) dedi ki, bu yaxınlarda Yerevanda kitab çıxıb, orada Oktyabrdan qabaqkı və sonrakı düşmənlərdən danışılır. Oktyabrdan sonrakı erməni xalqının düşmənləri içərisində *Rəsul Rza*' nın da adı var.

Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, tarix elmləri namizədi **Mənsur Əliyev** dedi ki, biz Qarabağı heç kimə verməriк. Qarabağ bizim şərəfimizdir. Burada ermənilər üçün hər cür şərait yaradılıb, ancaq onlar buradakı Azərbay-

[1] A.Şərifzadə küçəsindəki 33 nömrəli binada yerləşən Akademiya aspirantlarının ailəlilər yataqxanası. Mən də burada yaşayırdım.
[2] O zaman Bakıda yalnız bir universitet vardı – Azərbaycan Dövlət Universiteti (indiki Məhəmmədəmin Rəsulzadə adına BDU). – *2-ci nəşrin qeydi.*